KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 2 (15) 2022

Aygün Seyfəddin qızı Əliyeva
*BDU, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*Kitabxanaşünaslıq kafedrası, müəllim*
*ay_gun20@mail.ru*

# İNTERNETDƏN İSTİFADƏ ŞƏRAİTİNİN YARADILMASI VƏ DİSTANT XİDMƏT PROSESİNİN ASANLAŞMASI

**Xülasə:** *Məqalədə yeni texnologiyaların tətbiqi ilə təhsildə yeni istiqamət olan distant təhsil prosesinin üstünlükləri haqqında məlumat verilmişdir. Eyni zamanda DT sisteminin təşkilində kitabxanaların iştirakı və tədris metodik bazasının yaradılması məsələləri öz əksini tapmışdır.*
**Açar sözlər:** *distant təhsil, məsafədən xidmət, internet, keys texnologiyası.*

**Aygun Seyfaddin gizi Aliyeva**

## Creating conditions for using the internet and simplifying the process of remote service

**Abstract:** *The article provides information on the benefits of distance learning - a new direction in education using new technologies. The participation of libraries in the organization of the distance education system and the creation of an educational and methodological base was also reflected.*
**Key words:** *distance learning, distance service, internet, case technology.*

**Айгюнь Сейфаддин кызы Алиева**

## Создание условий для использования интернета и упрощение процесса удаленного обслуживания

**Резюме:** *В статье представлена информация о преимуществах дистанционного обучения - нового направления в образовании с применением новых технологий. Также было отражено участие библиотек в организации системы дистанционного образования и создание учебно-методической базы.*
**Ключевые слова:** *дистанционное обучение, дистанционное обслуживание, интернет, кейс-технология.*

XX əsrin ən böyük kəşfi hesab olunan İnternet cəmiyyətin bütün təbəqələrinin informasiya tələbatının ödənilməsinə xidmət edən qlobal şəbəkədir. Bu kəşfin əhəmiyyətini alimlər haqlı olaraq elektrikin kəşfi ilə müqayisə edirlər. İnternetin ən böyük informasiya mənbəyindən birinə çevrilməsi XX əsrin 90-cı illərindən Tim Berners Li tərəfindən əsası qoyulan Web texnologiyaya əsaslanır. O həmçinin HTTP, URI/URL və HTML

texnologiyalarının müəllifidir. Bu texnologiyaların tətbiqi nəticəsində yeni xidmət növləri o cümlədən, elektron bankçılıq, elektron ticarət, elektron hökumət, distant təhsil, elektron kitabxana xidmətləri və s. həyata keçirilir.

İnformasiya ehtiyatlarının axtarışı, toplanması, ötürülməsi vəzifəsini yerinə yetirən kitabxanaların fəaliyyəti internetin tətbiqi vasitəsilə daha da təkmilləşmişdir. Professor Abuzər Xələfov "Kitabxana və cəmiyyət" kitabında yazır: "İnternet kitabxanalardan sonra ən böyük informasiya ehtiyatına malik olub, korporativ yolla toplanan bu ehtiyatı rahat və əlverişli vasitələrlə cinsindən, yaşından, sosial statusundan, etnik mənşəyindən asılı olmayaraq, cəmiyyətin hər bir üzvü üçün əlyetərliyini təmin edir. İnternet bəşər tarixində analoqu olmayan, heç bir vasitə ilə müqayisəyə gəlməyən, inkişafının, təsirlərinin, perspektivlərinin, təhlükələrinin dəqiq proqnozlaşdırılması mümkün olmayan bir fenomendir. O, heç bir siyasi, dini, milli məhdudiyyətlər tanımayaraq, ölkənin coğrafi sərhədlərini aşaraq öz informasiya xidmətlərini istifadəçilərə bilavasitə yaşadıqları və işlədikləri yerdə təqdim edərək, cəmiyyət üzvlərinin mənəvi aləminə, təfəkkür tərzinə, əxlaqına, psixologiyasına daha çox nüfuz etmək imkanına malikdir".

İnternetin naqilsiz texnologiya vasitəsilə həyata keçirdiyi bir sıra xidmət növləri vardır ki, bunlardan ən geniş yayılanları Elektron poçt (e-mail), World Wide Web, Çat xidmətləri, Telnet, ftp, İnternet ticarət, distant təhsili qeyd etmək lazımdır. Bu xidmətlər sırasında distant təhsil son illər daha aktuallıq kəsb edir.

İnformasiya telekommunikasiya texnologiyasının inkişafı XX əsrin 70-ci illərindən başlayaraq, təhsildə yeni istiqamətin uzaq məsafədən – distant təhsilin (DT) yaranmasına səbəb oldu. Qeyd edək ki, distant təhsil fasiləsiz təhsilin əsas tərkib hissələrindən biri olub, bu gün dünya ölkələrində ən geniş yayılmış təhsil formasıdır. Distant təhsil fərdi şəkildə sinifdə aparılan tədris prosesində iştirak etməyənlər üçün tətbiq edilir. Distant təhsil müəllimlə tələbənin (öyrənən) coğrafi baxımdan fərqli yerlərdə yerləşdiyi məsafədən aldığı təhsildir. Avropada bu təhsil metodikasından başqa ölkəyə birbaşa gedib təhsil ala bilməyənlər daha çox istifadə edirlər. Eyni zamanda distant təhsil daha çox fiziki qüsuru, sağlamlığında müəyyən problem olan şəxslər üçün də nəzərdə tutulur. Burada əsas məqsəd sağlamlıq imkanları məhdud olanları evdən çıxarmamaqla distant təhsilə cəlb etmək, onların cəmiyyətə inteqrasiyasına nail olmaq və onlara cəmiyyətin ayrılmaz hissəsi olduqlarını göstərməkdir. Bu təhsil sisteminin həyata keçirilməsi üçün internetin olması vacib şərtlərdəndir.

Distant təhsil sistemi ölkənin bütün bölgələrində, xaricdə məktəblilərə, tələbələrə, mülki və hərbi mütəxəssislərə, işsizlərə təhsil almaları üçün bərabər imkanlar yaradır. DT cəmiyyətin informasiya tələbatlarına adekvat və çevik cavab verə bilən sistem kimi qiymətləndirilir.

Dünyada distant təhsil sisteminin ilkin əlamətləri hələ XVIII-XIX əsrlərdə özünü biruzə verməşdir və uzaq məsafədən təhsillə bağlı bir çox faktlar mövcud idi. Məsələn, B.Xolmberq və C.Boat 20 mart 1728-ci il tarixli Boston qəzetində Filipps Kaleb tərəfindən verilən elana istinad etmişdilər. Bu istinada əsasən





stenoqrafiya müəllimi olan Filipps Kaleb yaşadığı yerdən asılı olmayaraq, bütün şəxslərə stenoqrafiyadan dərs vermək haqqında elan vermisdir. Distant təhsil formasını ilk yaratmaq cəhdi isə 1840-cı ildə edilmişdir. Həmin vaxt İsaak Pitman poçt məktubları vasitəsilə Birləşmiş Krallıqda tələbələrə stenoqrafiyanı öyrətməyə başlamışdı [7, s.20].

Distant təhsilin inkişafı sahəsində növbəti addımı Ç.Tusen və Q.Lançenşteydt ataraq, 1856-ci ildə Berlində qiyabi təhsil verən institut yaratdılar. Bu gün əksər dünya ölkələrində bu təhsil formasından geniş istifadə olunur. Distant təhsildə müxtəlif təhsil proqramları, texnologiyalar və tədris forması birləşir. Bu da onun səmərəliliyini artırır. Məsələn, Fransada təhsil alan əhalinin 70 %-i bu təhsil növünə üstünlük verir [2, s.244].

Bu onunla əlaqədardır ki, distant təhsil insanları gündəlik fəaliyyətlərindən ayrılmamaqla eyni zamanda bir neçə ixtisas üzrə müxtəlif ali məktəblərdə yüksək təhsil almağa imkan verir. Təhsilin coğrafi uzaqlıqdan asılı olmayaraq – On line həyata keçirilməsi onun ümumbəşəriliyinə səbəb olur. Distan təhsil humanitar xarakter daşıyır və yaşından, cinsindən, irqi mənsubiyyətindən asılı olmayaraq hər kəsin təhsil almasına imkan verir.

Distant təhsilin elmi əsasları ancaq XX əsrdə meydana gəlmişdir. Müasir anlamda Distant və Açıq təhsil dedikdə daha çox İnternet Təhsil, Elektron Təhsil başa düşülür. DT sisteminin inkisafina informasiya texnologiyalarının və təhsil metodikalarının daha da yüksək keyfiyyətli xidmətlərin, marketinqlərin istifadə edilməsi böyük təsir göstərmisdir. 1960-ci illərin sonu və 1970-ci illərin əvvəllərində SSRİ və CAR-da fəaliyyət göstərən qiyabi ali məktəblərinə uyğun distant təhsil verən açıq ali məktəblər meydana çıxdı. İlk açıq universitet 1969-cu ildə Böyük Britaniyada açılmısdır [6, s.6]. Bu təhsil ocağı əvvəllər ali təhsil almaq imkanı olmayan şəxslərə təhsil almaq üçün imkan yaratmış və daha çox sovet qiyabi təhsilini xatırladırdı. Fərq yalnız onda idi ki, tədris yerləri tələbələrin yaşayış yerlərinə yaxın yerləşirdi və onlar xüsusi ləvazimatlardan istifadə edərək məşğul olurdular. Həm də onları əsas məşğuliyyətlərindən uzun müddətə ayırmaq lazım deyildi. Bunlardan başqa, tədris prosesində əsas rol tütorların (köməkçi müəllim) üzərinə düşür. Onlar da tələbələrə yaxın yerlərdə yaşayaraq, tədris prosesində tələbələri istiqamətləndirir, seminarlar keçirirlər. Tutor distant təhsil prosesində vasitəçi kimi çıxış edir və əsas fiqur hesab edilir. O, informasiya-kommunikasiya texnologiyaları əsasında maarifləndirmə prosesini həyata keçirir, resursların elmi-metodik ekspertizasını təşkil edir. Distant təhsilin müvəffəqiyyətli keçməsinə tutor cavabdehlik daşıyır. O, kursun məlumat bazalarının yüklənməsini izləyir, çatlar, dinamik dərslər təşkil edir. Eyni zamanda müəllimlərin hazırlıq səviyyəsini, xüsusi və əlavə hazırlığa ehtiyacı olanları müəyyənləşdirir.

Distant təhsil prosesində müəllimin (öyrədən) üzərinə böyük məsuliyyət düşür. O, tədris prosesini koordinasiya edir, tədris proqramını tənzimləyir, fərdi tədris planının hazırlanmasında məsləhətlər verir. Bir müəllim üçün onlayn dərslər öz bilik və təcrübəsini məhdudiyyətsiz ötürə bilməsində, özünü

ifadəetmə imkanında göstərir. Bundan başqa öyrədənlər aktiv tədris metodlarına malik olmalı, onlayn rejimdə hər bir öyrənənə uyğun tədris formasını, proqram təminatını aşılamalı, elektron ünsiyyətdə mövcud çətinlikləri aradan qaldırmağa kömək etməlidir.

Adətən distant təhsil zamanı aparılan dərslər bu sxem üzrə həyata keçirilir:

- öyrədən təqvim planı üzrə mövzu haqqında öyrənənlərə məlumat verir, ədəbiyyat tövsiyyə edir və materialın elektron variantını platformada qrup üçün açılmış fayllar bölməsinə əlavə edir;
- öyrənən verilən mövzunu sərbəst şəkildə öyrənir. Bu zaman o, müəllimin yerləşdirdiyi materiallardan istifadə edir. Mövzu ilə bağlı hər hansı bir məsələ aydın olmadıqda, növbəti dərs zamanı müəllimdən öyrənə bilər;
- hər bir keçirilmiş mövzunun sonunda müəllim tərəfindən qiymətləndirmə aparılır. Qiymətləndirmə 10 bal üzərində aparılır. Tələbənin harada olmasından asılı olaraq, imtahan kontaktlı şəkildə (üz-üzə) və ya virtual keçirilə bilər.

Distant təhsil alan tələbələr bu təhsil sisteminin aşağıda göstərilən üstünlüklərindən faydalanırlar;

- istənilən məkanda təhsil almaq imkanına sahib olmaq;
- əsas iş fəaliyyətindən ayrılmadan təhsil almaq imkanına malik olmaq;
- yüksək mobillilik;
- tədris materiallarına əlçatarlılıq;
- fərdi yanaşma;
- sosial bərabərlik və s.

Bu üstünlüklərlə yanaşı distant təhsil sisteminin mənfi tərəfləri də mövcuddur:

- təcrübi bilikləri çatışmazlığı;
- istifadəçi identifikasiyası problemi;
- kompüter biliklərinin yetərsizliyi;
- motivizasiyanın zəif olması;
- daimi nəzarətin olmaması;
- komunikabelliyin aşağı səviyyədə olması və s.

Distant təhsil məlumatlarının mübadiləsi vasitələri (sputnik rabitəsi, televiziya, radio, kompüter şəbəkəsi, İnternet və s.) üzərində qurulmuş ixtisaslaşdırılmış informasiya-təhsil mühitinin köməyi ilə ölkədə və xaricdə əhalinin geniş təbəqələrinə təqdim olunan təhsil xidmətləri kompleksidir. İnformasiya-təhsil mühiti dedikdə istifadəçilərin, yəni təhsil alanların akademik tələbatlarının ödənilməsinə yönəlmiş və sistemli təşkil olunmuş informasiya resursları, məlumatların ötürülməsi vasitələri, qarşılıqlı əlaqə protokolları, proqram-texniki və təşkilati-metodiki təminatlar məcmusu başa düşülür. Distant təhsilin xarakterik xüsusiyyətləri olaraq rahatlıq, modulluq, əhatəlilik, sosial tarazlıq, iqtisadi səmərəlilik, beynəlmiləlçilik, texnolojilik, müəllimin yeni rolu, paralellik, uzağa təsir, asinxronluq, əhatə, yeni informasiya texnologiyaları göstərilə bilər [5, s.10].





Distant təhsil təyinatına görə genişmiqyaslı və seçim (fraqment) xarakterli olurlar. Genişmiqyaslı tədris sistemi tədris planının tam yerinə yetirilməsi əsasında müəyyən ixtisas üzrə mütəxəssislərin, bakalavrların, magistrlərin hazırlanmasını təmin edir. Bu texnologiya müəllim və tələbə arasında, həmçinin tələbələr arasında interaktiv mübadiləyə əsaslanır. Seçim xarakterli tədris sisteminə təkmilləşdirmə kursları, II təhsilin alınması, istifadəçilərə ayrı-ayrı kurslar üzrə fərdi tədrisin təşkili və s. aiddır.

Distant təhsil sistemi asinxron və sinxron tədris metodlarına ayrılır:

- Sinxron sistemlər tədris prosesində eyni zamanda müəllimlə tələbənin iştirakını nəzərdə tutur. Bu zaman tələbələr eyni vaxtda məşğul olan qrupda və ya distant tədris qrupunda (müxtəlif auditoriyalarda, müxtəlif şəhər və ölkələrdə) ola bilərlər. Belə sistemlərə interaktiv TV, videokonfranslar, audioqrafika, kompüter telekonfransları, ICR, MOO, MUD aiddir.
- asinxron tədris metodunda tələbə tədris müəssisəsində uzaq məsafədə tədris-metodik materiallardan istifadə edərək fərdi plan üzrə hazırlaşır. Asinxron sistemlər müəllimlə tələbənin eyni zamanda iştirakını tələb etmir. Tələbə özü vaxt və planı tərtib edir. Distant təhsilin bu sistemlərinə çap materialları, audio-videokassetlər, elektron poçt, WWW, FTP, əsasında keçirilən kurslar aiddir.

Göstərilən metodlardan hər biri xüsusi təhsil texnologiyasına – distant tədris texnologiyasına malikdir. Belə ki, hər iki metod əlaqədar olaraq, bir-birini tamamlayır. Distant təhsil texnologiyalarının keys, İnternet və telekommunikasiya texnologiyaları kimi növləri vardır.

Keys-texnologiyaları zamanı tədris materialları xüsusi strukturlaşdırılmış dəstlərdə-“keys” şəklində komplektləşdirilir. Bu keys-lər tələbəyə sərbəst şəkildə öyrənməsi üçün göndərilir. Təhsil verən məsləhətçilərlə ünsiyyət yaradılmış virtual təlim mərkəzlərində həyata keçirilir. Hesab olunur ki, keys texnologiya dəstəkli tədris materialları və kifayət qədər motivasiya öyrənənlərdə tədris materiallarının tam müstəqil şəkildə mənimsəmək bacarığı aşılayır.

İnternet (şəbəkə) texnologiyalarından istifadə edildikdə təhsil onun subyektlərinin harada olmasından asılı olmayaraq, tədris-informasiya resurslarından istifadə edilməsinə əsaslanır və tədris prosesinin reallaşdırılmasının və idarə edilməsinin metodik, təşkilati, texniki və proqram vasitələrinin mövcud olmasını nəzərdə tutur. Tələbənin internet texnologiyası üzrə təhsil alması üçün o, kompüterdən və internetdən istifadə etmək imkanına malik olmalıdır.

Telekommunikasiya (informasiya-peyk) texnologiyası əsasən informasiya-tədris resurslarının translyasiya edilməsi üçün kosmik peyk vasitələrindən, eləcə də müəllimin və tələbələrin effektiv kontraktlarının təmin edilməsi, tələbələrin ali məktəbin rəqəmsal kitabxanalar, videomühazirələr və s. məlumatları əhatə edən informasiya bazalarından istifadə imkanını təmin etmək üçün qlobal və lokal şəbəkələrdən istifadə edilməsinə əsaslanır. Distant təhsilin telekommunikasiya modeli həm poçt e-mail protokollarına (POP3 və İMAP4) əsaslanan off-line rejimində, həm də interaktiv öyrədici texnologiyalardan

istifadə etməyə imkan verən http, ftp, gopher və başqa protokollara əsaslanan on-line rejimində reallaşdırıla bilər.

Distant təhsildə adi poçt xidməti, kitab və nəşr materialları; radio-səs kasetləri, televiziya, video, telekonfrans, kompüter, internet və s. kimi texnologiyalardan istifadə edilir.

***Adi poçt xidməti, kitab və çap materialları:*** distant təhsildə ilk olaraq adi poçt xidməti vasitəsilə təhsil təşkil edilmişdir. Təhsil alanlara kitablar və nəşr materialları poçtla göndərilmişdir. Texnologiyaların yüksək səviyyədə inkişafına baxmayaraq, kitab və çap materiallarından istifadə hələ də davam edir.

***Radio-səs kasetləri:*** Bu vasitələrin ən sıx istifadə edildiyi sahə xarici dillərin öyrənilməsi olmuşdur.

***Video:*** Televiziyadan fərqli olaraq videodan istifadə etməklə vaxt maneəsi aradan qaldırılmış və tədris alanın öz istəyi ilə biliklər əldə edilməsi imkanı yaranmışdır.

***Telekonfrans:*** Bu zaman ayrı-ayrı yerlərdə olan qruplar öz aralarında əlaqə yaradırlar və həm audio, həm də video konfransdan istifadə edilir.

Peyk televiziya şəbəkəsi: bu texnologiya çox populyar olub, bir çox təşkilatlar tərəfindən bilik əldə etmək üçün istifadə edilir [6, s.17].

***Kompüterdən istifadə etməklə təhsil:*** Kompüterdən istifadə etməklə CD, DVD-lə istifadəçiyə çatdırılan təhsildir. Kompüterə qoşulan kamera, skaner vasitəsilə müxtəlif tipli sənədlər bir yerdən digərinə göndərilə bilər. İmtahanlar kompüter vasitəsilə keçirilə və dərhal qiymətləndirilə bilər.

İnternetlə təhsil: bu texnologiyaya bəzən "veb əsaslı təhsil", "online elektron siniflər" və ya "virtual təhsil bilikləri" də deyilir. İnternetlə təhsil texnologiyası qeyd etdiyimiz hər üç təhsil sistemini dəstəkləyir. Müxtəlif verilənlər bazası, linklər, elektron nəşrlər, jurnallar, kitabxanalar köməkçi rolunu oynayır.

Distant təhsildə məlumatlar öyrənənlərə çap materialları, elektron materiallar, elektron dərslik, televerilişlər və s. formalarda təqdim edilir və müvafiq olaraq tədris informasiyalarının kitablar, disklər, audio-video kasetlər kimi daşıyıcıları vardır. Burada tədris metodik kompleksdən, kompüter, televizor, audio-video maqnitofon, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur. Distant təhsil üçün məlumat bazasına müxtəlif tipli daşıyıcılarda hazırlanmış nəşrlər şəklində əsas tədris ədəbiyyatı və tədris-metodik ədəbiyyat fondu; multimedia müşahidə vasitələri ilə təchiz olunmuş ixtisaslaşdırılmış dərsliklər, elektron dərsliklərin, tədris vəsaitlərinin, kompüter treninq proqramlarının daxil olduğu elektron tədris-metodik komplekslər, kompüter laboratoriya praktikumları, tədris videofilmləri, audioyazılar, kadrların hazırlanması profillərinə müvafiq dövri nəşrlər, sorğu-biblioqrafik xarakterli nəşrlər, eləcə də mərkəzi və yerli kütləvi ictimai-siyasi nəşrlər fondu; hər bir təhsil proqramının profili üzrə monoqrafiyalar və dövri elmi nəşrlərlə təmsil olunmuş elmi ədəbiyyat fondu daxildir.

Qeyd olunduğu kimi, təhsil alanların uzaq məsafədə olması səbəbindən





distant təhsilin elmi və tədris-metodiki bazasının əsas hissəsini virtual informasiya-təhsil mühiti təşkil edir. Kompüter sistemlərinin, o cümlədən internetin bazasında virtual informasiya-təhsil mühitinin, yəni elektron tədris-metodiki fondun, elektron kataloqların, elektron kitabxanaların, elektron məlumat bazalarının və s. yaradılması distant təhsilin əsasını təşkil edir. Distant texnologiya sistemi ilə təhsil alan tələbələr üçün elektron kitabxanalararası abonomentin və sənədlərin elektron çatdırılması metodunun böyük əhəmiyyəti vardır. Elektron sənəd göndərişi sürətli təkamül yolu keçərək, bu gün demək olar ki, bütün ölkələrdə uzaq məsafədən informasiya mübadiləsi vasitəsi kimi istifadə olunur və müasir kitabxanalarda tətbiq edilən əsas və sərfəli xidmət növüdür. Elektron sənəd göndərişi böyük texniki təminat tələb etmir. Bu xidməti kitabxanalarda təşkil etmək üçün internetə qoşulmuş kompüter, faks-modem, telefon rabitəsi, skaner, printerin olması kifayətdir. Səmərəli elektron çatdırılma metodu distant təhsil sisteminə böyük kömək göstərir. Sənədlərin elektron çatdırılma metodu ənənəvi yolla saxlanılan mənbəyə çatmaq imkanını təmin edir. Bu aşağıdakı qaydada aparılır:

1. İstifadəçi kitabxananın saytına müraciət edir və müstəqil kataloqdan və ya təşkilatın verilən resurslarının siyahısından lazımlı sənədləri seçir;
2. İstifadəçi lazımi materialı alıb, kitabxananın saytından informasiya və ya nəşriyyat təşkilatına sifarişi rəsmiləşdirir. Sifarişə, sifariş edilən sənəd haqqında tam biblioqrafik informasiya, həmçinin sifarişçi haqqında məlumatlar, verilmənin, çatdırılmanın və sifarişin ödənişinin forması qoşulur. Qeyd edək ki, sifariş etmiş istifadəçi haqqında məlumat sifarişinin rəsmiləşdirilməsi üçün qeydiyyat olduğu halda avtomatik formalaşdırırlar.
3. Sifarişin alınmasından sonra təşkilat – sənədin sahibinə elektron poçtla sifarişin harada ödənişi (müqavilənin, formanın və ödənişin, müddətlərin və sifarişin icrasının sırasının üsulunun rəsmiləşdirilməsi ehtiyacını danışırlar) və icrası şərtlərini bildirən məktub göndərilir.
4. İstifadəçi təşkilatlar sənədin sahibinə öz sifarişini ödəyir və təsdiq edir.
5. İstifadəçi sifariş edilmiş surəti alır və bağlanmış müqavilənin şərtlərini yerinə yetirir (məsələn, kağızda sənədin çapını edir və elektron surəti uzaqlaşdırır).

Distant təhsildə tələbələrin informasiya təminatında məlumat bazalarının da mühüm əhəmiyyəti vardır. Şəxsi təhsil sorğularının ödənilməsində məlumat bazalarına müraciət çoxluq təşkil edir.

Qeyd etmək lazımdır ki, tədris prosesinin hansı texnologiya ilə reallaşmasına baxmayaraq, ali məktəb kitabxanaları təhsilin əsas və aparıcı laboratoriyası olaraq qalmaqdadır. Çünki informasiyanın əsas həcmi məhz burada cəmlənir və keysin formalaşması, elmi-metodiki proqram komplekslərinin yaradılması kitabxanasız qeyri-mümkündür. Müasir dövrdə tələbələrə müstəqil iş və distant təhsilin dərindən mənimsəmələri üçün daha çox vaxtın ayrılması kitabxanaların əhəmiyyətinin atrmasını şərtləndirir. Bunun üçün kitabxanalar:

- elektron kitabxanaların təşkilində yaxından iştirak etməli;
- distant təhsilin informasiya təminatını həyata keçirməli;
- internetə çıxışı olmalı, nəşrləri rəqəmsallaşdırmalı, ədəbiyyatı elektron daşıyıcılara köçürməli;
- personalda "açıq kitabxana" fəlsəfəsini formalaşdırmalıdır [8, s.189].

Ali məktəb kitabxanalarının fəaliyyətinin əsasını kəmiyyət və keyfiyyətcə oxucu sorğusuna uyğunlaşan soraq-informasiya fondu təşkil edir. Bu gün distant təhsilin kitabxanalarda müvəffəqiyyətlə yayılması üçün əsas aşağıdakı məsələlərin həlli vacibdir:

- kitabxana-informasiya proseslərinin kompüterləşdirilməsi, sənədlərin göndərilməsində yeni texnologiyaların tətbiqi;
- elektron oxu zallarının təşkili, oxucular üçün internetə çıxışı olan elektron işçi yerlərinin olması;
- şəxsi məlumat bazasının yaradılması, borc informasiya resurslarından istifadəni genişləndirmək;
- tələbə və müəllimlərin informasiya mədəniyyətini formalaşdırmalı;
- fondun ənənəvi və qeyri-ənənəvi komplektləşdirilməsini genişləndirməli.

Xalqın elmi-mədəni potensialının güclənməsi üçün bu gün Azərbaycanda distant təhsilin həyata keçirilməsi vacib məsələlərdən biridir. Bunu dünyanın qloballaşması və informasiyalaşdırılmış vətəndaş cəmiyyəti quruculuğu tələb edir.

Son illər distant təhsilin populyarlığı kəskin şəkildə artıb. Buna səbəb isə dünyanı ağuşuna alan yeni növ koronavirus (COVID-19) pandemiyasının kütləvi şəkildə yayılmasıdır. Bu proses dünyanın əksər ölkələrini əhatə etdiyindən təhsildə fasiləsizliyi təmin etmək üçün distant yolla təhsil prosesinə keçmək zərurətini yaratmışdır. Ölkə rəhbərliyi 2020-ci il mart ayının 3-dən başlayaraq bütün təhsil müəssisələrinin fəaliyyətini dayandırmışdır. Hazırda respublikada bütün ali təhsil müəssisələrində distant, məsafədən təhsil prioritet məsələdir. Eyni zamanda ümumtəhsil məktəblərində təhsildə fasiləsizliyi təmin etmək məqsədilə Virtual məktəb platformasından teledərslərə başlanmışdır. Hər bir təhsilalan həqiqətən də öz yaşadığı məkanı tərk etmədən bu tədris prosesinə qoşula bilər. Kompüter, müvafiq proqram və sürətli internetin olması burada əsas şərtlərdəndir. Qeyd olunan vasitələrin olmadığı mühitdə heç bir distant təhsildən söhbət açmaq mümkün deyil. Bu proses ali təhsil müəssisələrində Teams platformasından həyata keçirilir.

Azərbaycanda DT sisteminə keçmək üçün ali təhsil müəssisələrinin maddi-texniki bazası bu formaya uyğunlaşdırılmalı, distant təhsilin informasiya təminatı yaradılmalıdır. Bu isə ilk addım kimi istənilən ixtisasın tədrisinə aid elektron resursların yaradılması, öyrəniləcək fənlərə uyğun elekron baza qurulması deməkdir. Distant təhsil formasının informasiya təminatı üçün bütün kitabxanalar müasir elektron formaya keçməli, yeni elektron kitabxanalar, korporativ kitabxana sistemləri yaradılmalıdır. Respublikamızda bu sahədə yetərincə mütəxəssis kadrların olmaması, maliyyə çətinlikləri və internet





sahəsində olan problemlər DT sisteminin formalaşmasına mane olan səbəblər sırasındadır.

Dünya ölkələrində virus təhlükəsinin geniş yayıldığı şəraitdə cəmiyyət üzvləri fasiləsiz olaraq mütaliə etmək, yeniliklərlə tanış olmaq, elmi araşdırmalar aparmaq istiqamətində işlərini davam etdirirlər. Bu baxımdan informasiya müəssisələri və kitabxanalar milyonlarla oxucu, istifadəçi sorğusunu ödəmək üçün online xidmətə keçmişlər. Distant xidmət kitabxanaların veb saytı vasitəsilə həyata keçirilir. Aşağıdakı məsafədən xidmət formaları həyata keçirilir:

- sənədlərin ilkin sifarişi və bron edilməsi;
- əldə olan ədəbiyyatın müddətinin uzadılması;
- sənədlərin elektron göndərişi;
- kitab, jurnal, qəzet, not, foto, rəqəmsal, normativ nəşrləri əks etdirən tammətinli məlumat bazalarına giriş;
- soraq-biblioqrafiya xidmətləri: elektron kataloq, biblioqrafik, referativ resurslardan istifadə;
- distant sosial-mədəni, mədəni-maarif xidməti.

Bundan başqa DT sisteminin Azərbaycanda təhsil praktikasına səmərəli tətbiq edilə bilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- Azərbaycanda DT-yə tələbatı, onun vəziyyətini və inkişaf perspektivlərini öyrənmək;
- İnkişaf etmiş dövlətlərin DT sistemlərinin inkişafının aparıcı meyllərini aşkar etmək;
-DT-nin inkişafı üzrə dövlət proqramı yaratmaq;
- Ali təhsilin müxtəlif səviyyələri üçün baza tədris fənləri üzrə DT-nin tədris-metodik, elmi-metodik və proqram-texniki təminatını işləyib hazırlamaq: aparıcı müəllimlərin mühazirələrinin videoçəkilişi, təhsil prosesində istifadə edilən ədəbiyyatın videobankının, CD-bankının, CD-surətlərinin, distant təhsil texnologiyaları əsasında öyrəniləcək təhsil fənləri üzrə kompüter tester-trenajorları bankının yaradılması işlərinə başlamaq;
-DT sistemində işləyəcək mütəxəssislər hazırlanmasını təşkil etmək;
-Ölkədə DT sisteminin inkişafını təmin edən maliyyə mexanizmlərini müəyyənləşdirmək və təşkilati-idarəetmə strukturlarını formalaşdırmaq;
-Ənənəvi-cari və yekun nəzarət mexanizmlərini, DT sistemi üçün spesifik elektron nəzarət mexanizmlərini yaratmaq;
-DT sahəsində beynəlxalq əməkdaşlığın inkişafını, beynəlxalq təhsil layihələrində iştirakı fəallaşdırmaq;
-Ölkədə DT haqqında müsbət ictimai rəy, DT sisteminin inkişafında iştirak etmək arzusunu bildirmiş təşkilatlar və şəxslər üçün əlverişli investisiya şəraiti yaratmaq [11].

Azərbaycan Respublikasında DTS-nin tətbiqi, sosial əhəmiyyəti, cəmiyyətdə təhsilin artan rolu, cəmiyyətin informasiyalaşması, demokratikləşməsi, dünyanın qloballaşması və bunun nəticəsi olaraq beynəlxalq vahid təhsil-informasiya mühiti yaradılması zərurəti, Azərbaycanın

tədricən Avropa və dünya təhsil məkanına inteqrasiyası və s. reallıqlarla əlaqədardır.

Bütün bunlar Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Təhsil Sisteminin Təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli fərmanı, "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və telekommunikasiya texnologiyaları inkişafının Milli Strategiyası (2003-2012-ci illər)" Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 21 avqust 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" kimi mühüm dövlət sənədlərində öz əksini tapmışdır. Bu məsələlər distant təhsil sisteminin tətbiqində cəmiyyətin informasiyalaşdırılmasına, demokratikləşdirilməsinə, təhsil-informasiya mühitinin yaradılmasına əsaslanır.

## ƏDƏBİYYAT

1. *Əhmədov, E. Biliklər cəmiyyəti kitabxana işinin modernləşdirilməsinə təsir edən amil kimi // Kitabxana. az jurnalı. - Bakı, 2009. №5.*

2. *Hüseynova, A.S. Fasiləsiz təhsil sisteminin tərkib hissəsi olan distant təhsilin təşkilində elektron kitabxanaların iştirakı // Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası, - Bakı: BUN. - 2008. № 3,- s. 243-248*

3. *Hüseynova, A.S. Azərbaycanda distant təhsilin həyata keçirilməsi üçün əsas istiqamətlər // İnformasiya və Tətbiqi Proqramlar mövzusunda Gənc Tədqiqatçıların III Respublika Elmi Konfransının Materialları. - Bakı: BUN, -2004, -s. 71-72*

4. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, azərnəşr,2011, 360 s.*

5. *Qasımov, V.Ə. Elm və təhsilin informasiya təminatı sistemləri. - Bakı: Elm, - 2005. - 13 s.*

6. *Бобров, Л.К. Принципы и методы информационно-библиотечного обеспечения учебного процесса в системе дистанционного образования / Л.К.Бобров, И.П.Медянкина, Я.Л.Щрайберг-Москва: ГПНТБ России,-2015.-124 с.*

7. *Пьянников, М.М. К вопросу об истории дистанционного образования // Ученые записки ЗаБГУ. Серия: Педагогика и психология, -2011. № 5,- с.119-124*

8. Федоров, В.Н. Электронная библиотека и дистанционное образование // Современные наукоемкие технологии,- 2010.-№ 10, -с. 188-191

9. *Alieva A. Distance education information supply and modern problems // Гілея: науковий вісник: Збірник наукових праць.- К., 2020. Випуск 157 (№6-9) – p. 67-70*

10. *Gelpi, E.A. Future for Lifelong Education/ E.A.Gelpi,- Vol. 1, 2. Manchester,- 1979.-p. 391*

11. *http://aseu.ucoz.com/news/distant_v_lav_t_hsil_m_rk_zi/2011-02-11-7*